Azərbaycan.- 2023.- 10 dekabr, № 270.- S.15.

# Hərbi qüdrətin nümayişi




**2020-ci ilin 10 dekabrı tariximizə ilk Zəfər paradının keçirildiyi gün kimi düşüb. 3 ildir ki, həmin günü böyük sevinclə qeyd edir, yaşananları qürurla xatırlayırıq. Xatırladıqca da iftixar hissləri keçirir, sevinc dolu düşüncələrə bürünürük.**

Uzun illər idi ki, xalqımız həsrətlə torpaqlarımızın işğaldan azad ediləcəyi, şəhidlərimizin qisasının alınacağı, köçkünlərin doğma ocaqlarına dönəcəyi, ordumuzun düşmən üzərində Zəfər çalacağı günü gözləyirdi. Gözləyirdi ki, Azərbaycan Ordusu erməni qəsbkarlarını məhv etsin, düşməni işğalda saxladığı ərazilərdən qovsun.

Şükürlər olsun ki, xalqın 30 ilə yaxın gözlədiyi gün qapımızı döydü. Şanlı ordumuz erməni qəsbkarları üzərində tarixi qələbə qazandı. 44 gün davam edən döyüşlərdə Ermənistan ordusu məhv edildi, torpaqlarımız işğaldan azad olundu.

Azadlıq meydanı çox tarixi hadisələrə şahidlik edib. 2020-ci il dekabrın 10-da keçirilən möhtəşəm paradın isə tariximizdə xüsusi yeri var. Zəfər paradında ilk olaraq Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev çıxış etdi. Dövlət başçısı xalqımızı bu əlamətdar gün münasibətilə təbrik etdikdən sonra Azərbaycan və Türkiyənin əbədi-əzəli dostluğundan söz açaraq dedi: "Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir. Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycan verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda bütün dünyaya göstəririk".



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Zəfər paradında çıxış etdi. Bildirdi ki, bu Zəfər günündə bizlərlə birlikdə olmaqdan böyük məmnunluq duyur: "Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır. Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır. Bu gün Azərbaycanın mili şairi, böyük mücahid Əhməd Cavad bəyin ruhunun şad olduğu gündür. Bu gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür".

Ürəkləri, qəlbləri riqqətə gətirən sözlərlə dolu olan çıxışlar başa çatandan sonra müxtəlif qoşun növlərinin keçidi başladı. Tribuna önündən keçən zabitlər, əsgərlər qürurla addımladılar. Bu anlarda hamıya elə gəlirdi ki, hazırda Azərbaycan əsgərinin addım səsləri Azadlıq meydanından birbaşa dünyaya yayılır, Yer üzünün hər tərəfində onun addımlarının gur səsi eşidilir.

Qoşun növlərinin keçidindən sonra sıra ilə, səliqəli şəkildə Azadlıq meydanına döyüş maşınlarını, zirehli texnikaları daşıyan qoşqular, hərbi avtomobillər, müxtəlif təyinatlı transpartyorlar daxil oldu. Azərbaycan Ordusu arsenalında olan silahlarının bir hissəsini nümayiş etdirdi. Nümayiş olunan silah və texnikaların arasında Vətən müharibəsində erməni qəsbkarlarının canlı qüvvəsini, döyüş texnikasını məhv edən pilotsuz uçuş aparatları - "Bayraqdar", "İtiqovan" və başqaları da vardı. Həbçilərimizin istifadəsində olan bu silahlara baxdıqca qürur hissləri keçirir, iftixarla deyirdik ki, Azərbaycanın güclü və qüdrətli ordusu var, Azərbaycan xalqı qalib ordusu ilə fəxr edir.

Yüksək ovqatla başlayan Zəfər paradı elə yüksək ovqatla da başa çatdı. Xalqımız tarixinin xoşbəxt bir gününü yaşadı. Beləcə, həzin, mülayim bir payız günündə - 10 dekabr 2020-ci ildə qələbələmizə həsr olnumuş Zəfər paradının bünövrəsi qoyuldu. Artıq zaman xeyrimizə işləyir, uğurlar üzünü bizə tərəf çevirib. Zəfərimiz, uğurumuz mübarək!

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*